# Azərbaycan iqtisad elminin cəfakeşi

**_Keçən əsrin ortalarında Azərbaycanda ali təhsilli kadr çatışmazlığı vardı və onlara çox böyük ehtiyac duyulurdu. Kadr çatışmazlığı bütün sahələrdə olduğu kimi, bank sistemində də özünü göstərirdi. Misal üçün, 60-cı illərdə SSRİ Dövlət Bankının Azərbaycan Kontorunun Naxçıvan İdarəsində çalışan 55 nəfərdən yalnız 3-ü ali təhsilli idi._**

Belə bir vaxtda – 1968-ci ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun Maliyyə-statistika fakültəsini bitirən Nazim Əhmədov SSRİ Dövlət Bankı Azərbaycan Kontorunun Naxçıvan idarəsinə təyinat aldı. Altı il bank sistemində əvvəlcə iqtisadçı, sonra isə baş iqtisadçı vəzifələrində işlədi.

Nazim Hidayət oğlu Əhmədov 1947-ci il yanvarın 1-də Ordubad rayonunun Vənənd kəndində ziyalı ailəsində dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra 1964-cü ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) İqtisad fakültəsinə daxil olub. 1966-cı ildə Xalq Təsərrüfatı İnstitutu açıldığına görə həmin fakültə XTİ-yə keçirilir.

Beləliklə, Nazim müəllim altı il bank sistemində çalışdıqdan sonra elmə olan marağı onu Naxçıvan Dövlət Pedaqoji İnstitutuna (indiki Naxçıvan Dövlət Universitetinə) gətirdi.

Keçən əsrin 70-ci illərində Naxçıvanda yeganə ali məktəb olan Naxçıvan Dövlət Pedaqoji İnstitutunda elmi dərəcəli kadrlar çatışmadığından rektorluq 1977-ci ildə onu indiki Bakı Dövlət Universitetinə göndərdi və o, müvəffəqiyyətlə imtahan verərək "İqtisadi nəzəriyyə" üzrə məqsədli aspiranturaya daxil oldu.

Elmi rəhbəri Xalq Təsərrüfatı İnstitutunun "İqtisadi nəzəriyyə" kafedrasının müdiri, mərhum professor, iqtisad elmləri doktoru Mirağa Musayev təyin edildi və Azərbaycan SSR materialları əsasında "Müasir şəraitdə əhalinin tədiyyə qabiliyyəti tələbi" adlı dissertasiya mövzusu təsdiq edildi.

Dissertasiya işini hazırlamaq üçün Nazim müəllim, demək olar ki, bütün aspirantlıq məzuniyyətlərini Moskva kitabxanalarında keçirdi. Onun əməksevərliyi və çətinlikdən qorxmaması, nəhayət, öz bəhrəsini verdi. Dissertasiya işinin vaxtında hazır olmasına və keçən əsrin 80-ci illərində bu ixtisas üzrə Azərbaycanda müdafiə şurasının olmaması işi müəyyən qədər gecikdirdi. Lakin Bakı Dövlət Universitetində Müdafiə Şurası yaradıldıqdan sonra AMEA-nın müxbir üzvü Siyasi iqtisad kafedrasının müdiri, mərhum professor, iqtisad elmləri doktoru T.Vəliyevin sədrliyi ilə Nazim Əhmədov yazdığı dissertasiyanı müvəffəqiyyətlə müdafiə etdi və 1991-ci ildə iqtisad elmləri namizədi alimlik dərəcəsi aldı.

Bir məsələni xüsusi olaraq qeyd etmək lazımdır ki, müdafiə zamanı opponent olmuş iqtisad elmləri doktoru, professor Səttar Səfərovun, iqtisad elmləri doktoru Qabil Manafovun, müdafiə şurasının üzvlərindən AMEA-nın müxbir üzvü, mərhum professor, iqtisad elmləri doktoru Ağasəlim Ələsgərovun, AMEA-nın müxbir üzvü iqtisad elmləri doktoru, professor Şahbaz Muradovun çıxışlarında və keçmiş SSRİ-nin müxtəlif şəhərlərindən gələn xarici rəylərdə səslənən müsbət fikirlər son nəticədə dissertasiya işinin SSRİ Nazirlər Soveti yanında təşkil olunmuş Ali Attestasiya Komissiyası tərəfindən 29 günə təsdiq edilməsinə və Moskvadan xoş xəbər gəlməsinə səbəb oldu.

Nazim Əhmədov "Azərbaycanda keçid iqtisadiyyatı şəraitində istehlak bazarının formalaşması problemləri" adlı doktorluq dissertasiyası işini də müvəffəqiyyətlə başa çatdırdı və 2006-cı ildə müdafiə edərək çox qısa bir vaxt ərzində iqtisad elmləri doktoru, alimlik dərəcəsi aldı. Doktorluq dissertasiyasında verilən təkliflər isə Naxçıvan MR İqtisadi İnkişaf Nazirliyi tərəfindən müzakirə edilərək tətbiq üçün qəbul edildi. 2011-ci ildə isə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri, akademik Arif Mehdiyevin Naxçıvana səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində professor vəsiqəsi təqdim edildi.

Müdriklər demişkən, "xalq üçün, Vətən üçün yaşanan ömür əsl insan ömrüdür". Belə insanların ömrü çətin, mənalı və şərəfli olur, başı həmişə el içində uca olur. Onlar öz xoşbəxtliyini, səadətini, varlığını Vətənə, xalqa layəqətlə xidmətdə görürlər. Belə insanlar öz xalqının, millətinin mənəvi siması – genefondudur desək səhv etmərik. Tam məsuliyyət və qürurla deyə bilərik ki, belə insanlardan biri də istedadlı alim, sözün həqiqi mənasında, gözəl insan, iqtisad elmləri doktoru, professor Nazim Əhmədovdur.

Nazim müəllimin elmi-pedaqoji fəaliyyəti çox zəngindir. O, elm yolunda pillə-pillə yüksəlmişdir: laborant, baş laborant, xüsusi şöbənin rəisi, müəllim, baş müəllim, dosent və professor. Muxtar respublikada fəaliyyət göstərən ali məktəblərdə kafedra müdiri və dekan vəzifələrində çalışmışdır. Naxçıvan Dövlət Universitetində 1994-2004-cü illərdə kafedra müdiri olduğu dövrdə, xüsusilə 90-cı illərdə muxtar respublikada elmi dərəcəsi olan iqtisadçı kadrlar qıtlığı yaranmışdı. Bu məsələ kafedra müdiri kimi Nazim müəllimi də düşündürməyə bilməzdi. Bu baxımdan o tez-tez Bakıya gedir iqtisadçı alimləri Naxçıvana dəvət edir və kafedranı böhrandan çıxarmağa çalışırdı. Dəvət olunan iqtisadçılar arasında iqtisad elmləri doktoru, professor Sifariz Səbzəliyev, iqtisad elmləri doktoru, professor Rasim Həsənov, iqtisad elmləri doktoru, professor Sofiq Hüseynov, iqtisad elmləri namizədi, dosent Əsəd Quliyev və başqaları universitetə gəlib həm dərs deyir, həm də beynəlxalq konfranslarda çıxış edirdilər. Bütün bunlar isə Naxçıvanda iqtisadçı kadrların yetişməsinə



öz müsbət təsirini göstərmişdir.

Nazim müəllim işlədiyi müddətdə çox geniş elmi fəaliyyətlə məşğul olmuşdur. Əsərlərinin siyahısını vərəqlədikcə məlum olur ki, ümumiyyətlə, o, 600-dən çox elmi və elmi-kütləvi əsərin müəllifidir. Nazim müəllim 300-dən çox əsər nəşr etdirmişdir ki, bunlardan da 30-dan çoxu monoqrafiya, kitab və dərs vəsaitləridir. O, habelə çoxsaylı dərs proqramlarının, tədris-metodiki vəsaitlərin və tövsiyələrin müəllifidir.

Onun əsərlərinin bir neçəsi ABŞ, Rusiya, İran, Türkiyə, Moldova, Ukrayna, Çexoslovakiya, Polşa və digər ölkələrdə nəşr olunmuşdur. O, bir çox beynəlxalq konfrans və simpoziumlarda məruzələr etmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin xüsusi fərmanı ilə imzaladığı Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları (2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illər üçün) Naxçıvan Muxtar Respublikasında da çox uğurla yerinə yetirilir. Məhz bu uğurları görmək və tədqiqata cəlb etmək Nazim müəllimi həmişə düşündürmüşdür. Elə bu baxımdan da beş monoqrafiyası, o cümlədən iqtisad elmləri doktorları R.Həsənovun və R.Sultanovanın rəyləri ilə və AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Ə.Nuriyevin, professor H.Səfərlinin redaktorluğu ilə "Elm" nəşriyyatı tərəfindən nəşr olunmuş 312 səhifəlik "Naxçıvan iqtisadiyyatı inkişaf yollarında" monoqrafiyası; iqtisad elmləri doktorları, professorlar Tofiq Quliyevin və Mamed Mehbullayevin rəyləri ilə 2008-ci ildə "Səbah" nəşriyyatı tərəfindən nəşr edilmişdir. Ulu öndər Heydər Əliyevin ad günlərinə həsr edilmiş 452 səhifəlik "Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf" monoqrafiyası, 2010-cu ildə "Elm və təhsil" nəşriyyatında, 148 səhifəlik "Heydər Əliyevin inkişaf modeli və Naxçıvanda dinamik inkişaf" monoqrafiyası Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 17 yanvar tarixli sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının 90 illik yübileyinə həsr olunmuş tədbirlər Planı"na əsasən, 2015-ci ildə "Əcəmi" nəşriyyatında, habelə, 272 səhifəlik "Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə" adlı monoqrafiya 2019-cu ildə "Əcəmi" nəşriyyatında çap edilmiş və Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr edilmiş 384 səhifəlik "Sürətlə inkişaf edən və modernləşən Naxçıvan iqtisadiyyatı" adlı monoqrafiya və digər bir sıra kitablar bütünlükdə Naxçıvan iqtisadiyyatının ayrı ayrı sahələrinin inkişafına və bu sahədə Ali Məclisin Sədrinin rəhbərliyi altında görülən işlərə həsr edilmişdir.

Professor Nazim Əhmədov xarici ölkələrdə keçirilən beynəlxalq konfrans və simpoziumlarda iştirak və çıxış edərək Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının 30 il ərzində anklav şəraitində yaşaması və buna baxmayaraq özünün sürətli inkişafını təmin etməsini bütün dünyaya çatdırır.

Fikrimizcə, Nazim müəllim elmi tədqiqatlarının bəlkə də yarıdan çoxunu məhz Naxçıvan iqtisadiyyatının Azərbaycanda və xarici ölkələrdə tanınması üçün ən çox səy göstərən azsaylı alimlərdən biridir.

Gənc iqtisadçı alimlərin hazırlanmasında fəal iştirak edən N.Əhmədov uzun illər Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan Universitetinin Elmi Şurasının və eyni zamanda, 15 il AMEA-nın Naxçıvan Bölməsində fəaliyyət göstərən fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsi almaq üçün təşkil olunmuş dissertasiyaların müdafiəsini keçirən D.01.211 Dissertasiya Şurasının üzvü və həmin şurada fəaliyyət göstərən seminarın sədri olmuşdur.

Elmi-pedaqoji fəaliyyətlə məşğul olan N.Əhmədovun rəhbərliyi altında indiyədək 6 nəfər iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmiş 1 nəfərin dissertasiya işi hazırlanaraq müdafiəyə buraxılmışdır. Hazırda isə o, 3 nəfər elmlər doktoru elmi dərəcəsi iddiasında olan dissertantın elmi məsləhətçisi, 8 nəfər fəlsəfə doktoru elmi dərəcəsi iddiasında olan doktorant və dissertantların elmi rəhbəridir. O, həmçinin bir çox magistr dissertasiya işlərinin elmi rəhbəri olmuşdur.

Nazim müəllim, eyni zamanda, Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyində hazırlanan bir çox layihələrdə iştirak etmiş, xeyli sayda namizədlik və doktorluq dissertasiyalarında rəsmi opponent və rəyçi olmuş, habelə bir sıra monoqrafiya, dərslik və dərs vəsaitlərinin, tədris proqramlarının hazırlanıb nəşr edilməsində elmi redaktor və rəyçi kimi iştirak etmişdir.

Nazim Əhmədov keçən əsrin axırlarında yenicə öz müstəqilliyini əldə etmiş Azərbaycan Respublikasının yeni bir iqtisadi sistemə - bazar iqtisadiyyatı sisteminə transformasiya olunması və yeni mülkiyyət münasibətlərinin formalaşması ilə əlaqədar olaraq tez-tez bu sistemin aktual problemlərinə həsr olunmuş konfransların və "dəyirmi masa"ların təşkilatçılarından olmuşdur.

Ömrünün 48 ilini məhsuldar elmi və pedaqoji fəaliyyətə həsr edən Nazim müəllim Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının reyestrinə daxil edilmiş Naxçıvan Dövlət Universitetinin "Xəbərləri", Naxçıvan Müəllimlər İnstitutunun "Xəbərləri" və habelə Bakı şəhərində nəşr olunan "İqtisadi və siyasi elmlər" elmi-analitik və praktiki jurnallarının redaksiya heyyətinin üzvüdür. Onun bir çox əsərləri respublika və xaricdə nəşr edilən nüfuzlu jurnallarda, 300-dən çox məqaləsi isə dövrü mətbuatda, o cümlədən "Yeni Ordubad", "Şərq qapısı", "Respublika", "Xalq", "İki sahil", "Bakı xəbər", "Azad Azərbaycan" və digər qəzetlərdə dərc olunmuşdur. Nazim müəllimin "Naxçıvan" və "Naxçıvanın səsi" radiosundakı, habelə "Naxçıvan" televiziyasındakı çıxışları da dinləyicilərin qəlbində silinməz izlər buraxmışdır.

Respublikanın ictimai həyatında fəal iştirak edən Nazim Əhmədov 16 oktyabr 2007-ci ildə Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə respublikamızda təhsilin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilmişdir. O 2015-ci ildə "Qızıl qələm" mükafatına layiq görülmüşdür. 2016-cı ildə isə Nazim Əhmədov Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasında keçirilən seçkilərdə səslərin əksəriyyətini qazanaraq Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Nazim Əhmədov həmişə olduğu kimi, bu gün də böyük əzmlə, tükənməz enerji ilə Azərbaycan iqtisad elmini ləyaqətlə təmsil edir.

Biz professor Nazim Əhmədovu yaxın dostları adından keçdiyi çətin, lakin, olduqca məzmunlu və şərəfli 75 illik ömür yolu, səmərəli əmək və elmi-pedaqoji fəaliyyətinin 48 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, möhkəm can sağlığı, ailə səadəti və elmi-pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

**_Əli NURİYEV,_**
**_AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi,_**
**_iqtisad elmləri doktoru, professor_**
**_Bəyalı ATAŞOV,_**
**_Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor_**